
İBRAHİM
SAMİROĞLU
SİRLİ SƏNƏD
2022

# İbrahim Samiroğlu "Sirli Sənəd".

Instagram.com/ibrahimsamiroglu

Facebook.com/ibrahimsamiroglu

**Bakı 2022**

# BİRİNCİ FƏSİL

Zəhləsi gedən zəngli saat səslənirdi. Vərdiş etməsə idi, bu saatı qurmağa ehtiyac qalmazdı. Hər səhər, saat doqquzda oyanırdı. Tək yaşaması, onun həyatını dəyişməmişdi. Evdəkilər nə qədər təkid etdilərsə də, evlənmədi. Bu adam, İstefada olan qırx yaşlı Mayor, Rövşən Rəhimov idi. Saçını, yüzlərlə cinayət işi açmaqda ağartmışdı. Son vaxtlar, xəfiyyəlik edirdi. Ona təklif olunan cinayətləri açır, müəyyən miqdarda qonorar alırdı. Əl-üzünü yuyub, mətbəxə keçdi. Yüngül qəlyanaltı hazırlamağa başlayırdı ki, qapının zəngi çalındı. Mətbəx işini kənara qoyub, zəngi susmayan qapıya getdi. Qapını açıb, gələnin kim olduğunu nəzərdən keçirdi.

– Salam, sabahınız xeyir. Rövşən Rəhimov?
– Sabahınız xeyir, bəli.

Bu, otuz yaşlarında bir kişi idi. Üzündən qəmli olduğu görünürdü.

– Mən sizdən kömək istəyirəm. – həm fikirli, həm qəmli görünürdü.

– Əlbəttə, buyurun içəri. – mayor, kənara çəkilib, gənci evə dəvət etdi.
– Çox sağ olun. – o, evə keçdi.

Mayor, iş otağına keçərək, evinə gəlmiş qonağa yer göstərdi. Qonaq əyləşib, mayora fikirli nəzərlərlə baxdı.

– Buyurun, sizi dinləyirəm. – Rəhimov, öz masasına əyləşdi.
– Sizin ev ünvanınızı, dostum, Tarık Sezərdən almışam. Bir vaxtlar ona kömək etmisiz.

Rəhimov, Tarık Sezəri tanıdı. İki il əvvəl, körpə oğlu oğurlanmış Tarık Sezər, ona müraciət edərək kömək etməsini istəmişdi. Mayor Rəhimov, tez bir zamanda uşağı tapıb, ailəsinə vermişdi.

– Bəli.. – Rəhimov cavab verdi.
– Sizinlə görüşməkdə məqsədim, vacib bir məsələ haqqındadır. – qonaq dedi.
– Adınız nə oldu? – Rəhimov, soruşdu.
– İlham Fərəcli.
– İlham bəy, ətraflı danışın. – Rəhimov dedi.
– İki gün əvvəl, şirkətimdə vacib sənəd oğurlanıb. Həmdə, mənim otağımdan. – İlham Fərəcli, Əsəbi hal aldı.

– Necə bir sənəd? – Mayor Rəhimov, ciddi görkəm aldı.
– Bir neçə il əvvəl, şirkət aldım. İlk günlər, işim pis getsə də, sonradan hər şey yaxşı oldu. İndi hər şey yaxşı gedirdi, bu sənədin yoxa çıxması isə, hər şeyi bərbad etdi. Bu yaxınlarda imzalanmış müqavilə zənci idi, o.
– Belə deyin.. – Mayor Rəhimov başını ovuşdurdu.

Mayor, Rövşən Rəhimov, işin çətin olduğunu anladı.

– Mənə kömək edəcəksiniz? cənab Rəhimov.
– Əlbəttə, edəcəyəm. Sizin şirkət harda yerləşir? – Mayor, masadan qalxdı.
– Şəhərin mərkəzi hissəsində. Buradan, yarım saatlıq yoldur.
– Onda gedək. – mayor Rövşən Rəhimov və İlham Fərəcli, evi tərk edib, Şirkətə yol aldılar.

***

İlham Fərəclinin Şirkətinə çatanda, günorta idi. Mayor, Rövşən Rəhimov ac idi. Səhər

yeməyini, İlham Fərəcli bölmüşdü. İlk öncə, şirkətin işçiləri ilə tanış oldu. İlham Fərəcli öz otağına keçmişdi. Mayor Rəhimov isə, katibə, Sevda xanımla söhbət edirdi.

– Deyirsiniz ki, Həmin vaxt, mətbəxdə olmusunuz. – Mayor, təmkinlə sorğu-sual aparırdı.
– Bəli, özümə qəhvə süzmək üçün, mətbəxə getmişdim. – katibə Sevda, cavab verdi.
– Saat neçə olardı?
– 10-11 arası. – katibə xanım, dedi.
– Gec qayıtdınız? – Mayor, soyumuş çayından bir qurtum içdi.
– Yox, bir-iki dəqiqəyə. – Sevda, quru dodaqlarını yaladı.
– Su için. – Mayor Rəhimov, qrafindən su süzüb, katibə, Sevdaya uzatdı.
– Sağ olun. – katibə, sudan bir-iki qurtum içdi.
– İlham Fərəclinin, yəni müdirin otağının qapısı bağlı idi? – Mayor, iti gözlərini katibəyə zillədi.

Katibə, ona zillənən iti gözləri görüb, özünü itirdi.

– Sevda xanım..
– Bəli... – Katibə, səsini çıxardı.
– Sual verdim. İlham Fərəclinin otağı bağlı idi?
– Hə. Yox-yox, bağlı deyildi. Otaqdan çıxanda, fikirli idi. Yadına düşmədi.. – Sevda, dalğın halda dedi.
– Siz başqa, heç nə görə bilmədiniz?
– Daha doğrusu.. Gördüm. – katibə cavab verdi.
– Nə gördünüz? – Rəhimov, təəccübləndi.
– Otağın qapısı açıq idi..
– Oldu, Sevda xanım. Ola bilsin ki, sizinlə bir daha görüşəsi oldum. – Mayor Rövşən Rəhimov ayağa qalxdı.
– Məmnuniyyətlə. Sağ olun. – Sevda incə əllərini, Mayora uzatdı.

Mayor bu incə əlləri sıxıb, katibədən uzaqlaşdı. İlham Fərəclinin otağına gedib, içəri keçdi.

– Cənab Rəhimov.. bir şey öyrənə bildiniz? – şirkət sahibi, hüznlü baxışlarla, mayoru süzdü.
– Hələ ki, heç nə deyə bilmərəm. Mühasiblə görüşmək istəyirəm. Bayaq görmədim.

– Əlbəttə, bu dəqiqə. – Fərəcli ayağa qalxaraq, mayorla birgə çölə çıxdı.

Enli koridorla gedirdilər. Şirkət sahibi, İlham Fərəclinin halı o qədər də yaxşı deyildi. Bu sənədin nə qədər vacib olduğu, bilinirdi. Mayor Rövşən Rəhimov, hələ ki, lazımi məlumat toplaya bilməmişdi. Hələ ki, dəlil yox idi.

Saatına baxaraq təəssüfləndi. Üzünü İlham Fərəcliyə tutub:

– İlham bəy. Mühasiblə görüş sabaha qalsın. Mən getməliyəm.
– Oldu, Cənab Rəhimov. Sizcə, sənəd tapılacaq? – Fərəcli həyəcanla dedi.
– Hələlik heç nə deyə bilmərəm. Ancaq, narahat olmayın.. – Mayor sözünün ardını gətirmədi.
– Sabah burada sizi gözləyəcəyəm. Lazımdırsa, sürücüm sizi gətirər. – Fərəcli, təklif etdi.
– Ehtiyac yoxdur. Hələlik! – Mayor Rövşən Rəhimov, sağollaşıb, Şirkət binasını tərk etdi.
– Sağ olun! – Şirkət sahibi səsləndi.

Mayor Rəhimov saatına baxanda, qaşlarını çatdı. Üç saat idi ki, bu şirkətdə idi. Lazımi dəlillər tapa bilməsə də, əlində bir-iki məlumat var idi! Bu başlanğıc üçün əla idi! Dayanacağa baxdıqda, avtobusun dayandığını gördü. Addımını itilədib, dayanacağa yol aldı. Beş-altı saniyə geciksə idi, avtobus onu görməyəcəkdi.

## *İlham Fərəcli, biznesmen.*

İlham Fərəclinin ilk karyerası, elə də uğurlu alınmayıb. İlk vaxtlarda, "karvan siqareti" – biznesi ilə fəaliyyətə başlayan iş adamı, tez bir vaxtda bu işdən gəlir götürməyərək, biznesi bağlayıb. Bir müddət kiçik alqı-satqı biznesi ilə də məşğul olub. Sonralar, enerji içkisi biznesi də açıb. Lakin, bunlardan bir gəlir əldə edə bilmədi üçün, bütünlüklə biznesini bağlayıb. Köhnə tanışı vasitəsilə, başqa bir biznes yaradaraq, köhnə işinə qayıdıb.

İnternetdən oxuduğu məlumat, İstefada olan Mayor Rəhimova bəs edirdi. Kompüteri söndürüb, saatına baxdı. Yatmaq vaxtından

keçmişdi. Vanna otağına keçərək dişlərini fırçaladı. Sabah olacaq görüşləri fikirləşdi. Bir-iki yerə baş çəkməli olacaqdı. İlham Fərəclinin sirli sənədi tapılmalı idi. Əslində, bu iş adamı, o qədər də pis biri deyildi. Bəzi biznesmenlər kimi, özünü dartmır, göylə getmirdi. Fərəcli Kimi sadə biznesmenlər az idi.. beynindəki fikirləri qovub, yataq otağına keçdi... Yatmaq vaxtı keçirdi. Binadakı mənzillərin işıqları sönmüşdü, təkcə onun mənzilindən başqa.. işığı söndürüb, yatağına keçdi...

***

– Siz həmin günü harada idiniz? – Mayor Rəhimovun, baş mühasib Ceyhun Yusifova yolladığı sual, mühasibi çaş-baş salmışdı.
– Mən.. burada. İşçilərin yanında. – Baş mühasib, öz çaşqınlığını bildirməmək üçün, gözlərini başqa səmtə yönəltdi.

İki saata yaxın idi ki, şirkətdə işləyən işçiləri danışdırmaqla məşğul idi. Hələ ki, öz şübhələrini dəqiqləşdirməyə çalışmırdı.

– Mənim məlumatlarıma görə, siz həmin saat işçilərin yanında olmamısınız!.. – mayor Rövşən Rəhimovun verdiyi sualı eşidən mühasib, özünü itirdi.
– Yox.. yəni, – O, sözünü düzəldə bilmirdi.
– Hə, nə? – Mayor istehza ilə dedi.
– Mənim heç nədən xəbərim yoxdur..! – mühasib əsəbləşərək, səsini qaldırdı.
– Yaxşı, siz deyən olsun. Mən hələ araşdırıram.

Mayor Rövşən Rəhimov, sözlərini deyib kabineti tərk etdi. İlham Fərəcli ilə də görüşüb, sağollaşdı..

# İKİNCİ FƏSİL

Qaranlıq çökmüş binanın həyətinə daxil olub, kiçik dalandan keçdikdən sonra, bloka daxil oldu. Bu gün xeyli araşdırma etmiş, bir sıra dəlillər tapmışdı. Blokda hənirti eşidib, cəld əlini qayışına atdı. Tapançasını çıxarıb, qaranlıqda ətrafı nəzərdən keçirdi. Lakin, gözlənilmədən açılan atəş, Polis Mayorunun qoluna tuş gəldi. İkinci zərbəni isə, Mayor Rövşən Rəhimov endirə bildi. Rəqibinin silah tutmuş qolunu nişan alıb, tətiyi çəkdi. Atış hədəfə çatmışdı. Rəqib əlini tutaraq zarıldadı. Bu səsin nədənsə, tanış olduğunu duydu, Mayor. Qolundan axan qanı durdurmaq lazım idi. Məğlub rəqibinə yaxınlaşıb, onu süzdü.

Qarşısında uzanıb, aman diləyən bu adam, 31-ci mənzilin sahibi, Zəki idi. Ay səni.. muzdlu qatil.

– Yalvarıram, öldürmə. – Zəki, aman diləyirdi.

– Sənə görə güllə atılmaz!.. – Rəhimov, zəkinin yanından keçib, öz mənzilinə qalxdı. Qolundan axan qan kəsmək bilmirdi. Təcili qanı kəsmək lazım idi. Evdə nə bint, nə başqa

tibbi ləvazimatlar var idi. Telefonunu açıb, polis bölməsini yığdı. Öz isə, evdən çıxaraq xəstəxanaya yollandı.

***

Gecədən keçməsinə baxmayaraq, xəstəxanada xeyli adam var idi. X. Polis bölməsinin müstəntiqi Ramiz Ağayev, Prokurorluğun bir-iki əməkdaşı. Qolu sarğıda olan Mayor Rövşən Rəhimov, qaşlarını çataraq, verilən suallara cavab verirdi. Onu heç kəs günahlandıra bilməzdi. Həm, özünü müdafiə məqsədi ilə atəş açmışdı. Müstəntiqin deməsinə görə, Zəkinin vəziyyəti yaxşı idi. Qanuni olaraq həbs

olunmalı idi. Açıq-aşkar, mayora sui-qəsd etməyə çalışmışdı. Mayor da ona cavab vermişdi. Onu darda qoymayan silahı ilə. Silaha gələndə isə, onun silahı qanunu idi. Sənədləri də var idi. Müstəntiq ondan əl çəkmək bilmirdi.

– Cənab mayor. Silahınız qanunidir?..
– Hə. – qısaca cavab verdi.

Mayora başqa bir-iki sual verib, onu rahat buraxdılar. Yaxınları da yox idi!. Tibb bacısı içəri girərək, yaranı açaraq, yenidən sarıdı. İşini bitirən tibb bacısı, çölə çıxaraq, yenidən içəri daxil oldu:

– Yanınıza bir nəfər gəlib. – gülərüzlü tibb bacısı dedi.
– Buraxın, gəlsin.

İçəri girən gənc oğlan, əlində tutduğu torbanı masaya qoydu.

– Allah şəfa versin, Rövşən müəllim. – Gənc bildirdi.
– Çox sağ ol. Nə tez xəbər tutmusunuz? – mayor gülümsədi.

– Hə, tez xəbər tutdum. Gecə olmasına baxmayaraq, gəlmək istədim.

Bu cavan oğlan, bir vaxtlar Mayorun köməyi ilə, böyük bir cinayətin iftirasından qurulmuşdu. Bahadır, o gündən mayorla hal-əhval tuturdu. Yarım saat söhbətdən sonra, Bahadır mayorla görüşüb, xəstəxananı tərk etdi. Masanın üzərində olan torbada, Mer-meyvə, mineral sular var idi. Birdə, kiçik saat. Saat isə, 02:34 idi. Palatanın qapısı döyülərək, açıldı. Bu dəfə gələn isə, Şirkət sahibi, İlham Fərəcli idi.

Əynində olan xaki rəngli kostyum, onu klassik kişilərə bənzədirdi.

– Yastığınız yüngül olsun, Rövşən müəllim.
– Sağ olun.
– Sizi bu vəziyyətə gətirmək istəməzdim. – İlham Fərəcli, ah çəkdi.
– Necə yəni?
– Sizi yaralayan cani, deyəsən, mənim işimlə bağlıdır. Pulla tutulub, çox güman ki..
– Haradan bilirsiniz? – mayor, təəccübləndi.

– Dindirilib. Boynuna tam almasa da, şübhəli olaraq qalır.
– Belə deyin..
– Sizin işdən çəkilmək fikriniz var?..
– Bu haradan çıxdı!.. – İstefada olan Mayor, qaşlarını çatdı.
– Yəni.. – Fərəcli sözünün ardını gətirmədi.
– Mən, təqsirkarı tapacağam!..
– Bəli.. Mən getməliyəm, cənab Rəhimov. Bir daha, yastığınız yüngül olsun!.. – Şirkət sahibi, sözlərini deyərək, otağı tərk etdi.
– Sağ olun!

Bəzən biz xəstəxanada, Aptekdə qəribə qoxu

hiss edirik. Ancaq, biz onun tam olaraq nə olduğunu anlaya, dərk edə bilmirik. Bəzilərimiz elə bilir ki, bu, dərman iyidir. Ancaq bir şey var ki, Mayor Rövşən Rəhimov bu iyi, xəstəxanada yatan, ölüm ayağında olan insanların qoxusu kimi qəbul edirdi. Yarasına baxıb, gülümsədi. Bu onun, xəfiyyəlik işində, ilk aldığı yara idi. Keyin təsiri keçdiyi üçün, yarasının ağrısı başlamışdı. Bezin qırmızı olduğunu görüb, tibb bacısına:

– Türkan xanım, bura gəlin!.. – deyə səsləndi.

***

Şirkət sahibi, İlham Fərəcli bağ evində səhər yeməyini yeyirdi. Süfrə arxasında, olmazın yeməklər var idi. Kim görsə, iştaha gələrdi. Bircə, İlham Fərəclidən başqa..

– Xəfiyyə nə edir?. – yoldaşı ona səsləndi.
– Yaralanıb.. – boşqabındakı zeytunu didən, şirkət sahibi, həvəssiz cavab verdi.
– Niyə? Allah bilir nə edib! – yoldaşı, biədəb bir söz də dedi
– Nəzakət, bəsdir!.. – əlində tutduğu çəngəli

necə tulladısa, çəngəl, düz televizora dəyərək, asılı vəziyyətdə qaldı. İşlək vəziyyətdə olan televizor, birdən-birə qaralaraq söndü.

– Dəli olmusan?! Sənədin itməyi səni dəli edib!. – yoldaşı, ayağa qalxaraq yemək masasını tərk etdi.
– Zibilə qalasan! Heç kim məni anlamır! – Nəzakətin ardınca qışqırdı.

Masanın üzərində olan telefon səsləndi. Fərəcli telefonu əlinə alaraq Kuzmin adını gördü. Kuzmin, onun şirkətdə köməkçisi idi. zəngi açdı:

– İlham müəllim. Zimbabve ilə sənəd müqaviləsi hazırdır. Sizdəki qəbul kağızlarını almaq qalır. – Kuzmin dedi.
– İndi gəlirəm, Kuzmin. – Dedi.
– Oldu, İlham müəllim. – Kuzmin əlaqəni kəsdi.

Kostyumunu geyinib, əlindəki pultla maşını işə saldı. Texnologiya, Texnologiya.. indiki zaman tamam başqa idi. Bircə, problemlər.. heç kəsə bir kəlmə də demədən evi tərk etdi. Bağban Səfər kişi, səhər tezdən ağacları sulayırdı.

Fərəclini görüb, səsləndi:

– Sabahınız xeyir, İlham müəllim. – dedi.
– Salam. – Fərəcli mızıldandı.

Səfər kişi, nə isə demək istəsə də, Şirkət sahibinin əsəbi olduğunu anlayıb, susdu. Pultla açılan qapıdan çıxaraq, üzü şəhərə yola düşdü.

***

Üst başını qaydaya salıb, hazır dayanmış mayor, həkimi gözləyirdi. Bu gün xəstəxanadan çıxırdı. Güllənin yeri tikilərək, tam sağalmışdı. Həkimin gəldiyini görüb, ayağa qalxdı.

– Gedə bilərsiniz. Özünüzü qoruyun!..
– Sağ olun! – Mayor, sağollaşıb palatadan çıxdı.

Təmiz havaya çıxanda, gülümsədi. Çöldə dayanan qara rəngli Prado ona yaxınlaşdı. Şüşəni aşağı salan cavan oğlan:

– Cənab, Rövşən Rəhimov. Əyləşin. İlham Fərəclinin mühafizəçisiyəm.

Mayor, dinməz-söyləməz maşına oturdu.

– Hara gedəcəksiniz? – gənc soruşdu.
– Mümkünsə, evə.
– Oldu!..

Sənədin müəmmalı şəkildə yoxa çıxması, qəribə idi. Bundan əlavə, şirkətdə işçilər ola-ola. Həmin vaxt işıq da sönübmüş. Kim edibsə,

planlı şəkildə edib, oğurluğu. Mayorun fikrincə, işin sonuna çatırdı. Bir-iki dəlillər qalmışdı ki, onu da tapacaqdı!..

– Çatdıq.. – gəncin səsi gəldi.
– Hə. Çox sağ olun! İlham bəyə də, təşəkkürümü bildirin! – deyib, maşından endi.

Fikirli halda bloka daxil oldu. Rəhimovun düşündüyü isə, onun ölməsini kim istəyirdi?! Kimə xeyir gətirəcəkdi, onun ölümü?! Mənzilin qapısına çatanda, üzbəüz qonşu, qapını açdı. Bu, mənzilə yenicə köçmüş, Şamil Arazlı idi. İki aya yaxın olardı ki, bu mənzili satın almışdı, Şamil Arazlı. Ozan Nəşriyyat evində redaktor işləyirdi. Hərdən, Mayorun evinə keçər, söhbət edərdilər.

– Salam, Rövşən müəllim. Allah şəfa versin!.
– Sağ olun, Şamil müəllim. – Mayor cavab verdi.

Mayor evə keçmək istəyəndə, yadına bir şey düşmüş kimi, geriyə dönüb:

– Şamil müəllim. Əgər, bu gün işiniz yoxdursa, maşınınızla məni bir-iki yerə apararsınız.
– Əlbəttə, apararam. Nə vaxt?
– Saat 11:00 -da həyətdə olun. – deyərək evə keçdi.

Keçən dəfə ki, kimi qara paltosunu geyinib, qara eynəyini taxdı. Şlyapasını da unutmadı. Vaxtın tamam olduğunu görüb, həyətə düşdü. Şamil Arazlı da öz Qaz 24-nü işə salıb, Mayoru gözləyirdi.

– Hə gedə bilərik. – mayor, arxa qapını açıb əyləşdi.
– Gedək. – Şamil də maşına əyləşdi.
– Siz sürün. Mən yolu göstərəcəm.
– Oldu. – Şamil maşını, asfalt yola çıxarıb, asta sürətlə yola qoyuldu.

Mayor, yenidən, katibə ilə görüşə gedirdi. Hər şeyin ucu həmin katibədə olmalı idi..

# RƏHİMOVUN İSTİNTAQI

Şirkətə çatanda, saat on iki idi. Şamil Arazlı, Mayoru düşürdüb, nəşriyyata getdi. Mayor, İlham Fərəcli ilə görüşüb, bir-iki söhbət

etdikdən sonra, katibə ilə görüşə yollandı. Bu dəfə ki, görüş, katibənin otağında idi. Mayor, üz-gözünü turşudaraq danışırdı:

– Sevda xanım! Nəzərinizə çatdırım ki, araşdırmalarım bitib!
– Bitib?! – Sevda, sarı saçlarını oynadaraq, həyəcanlı şəkildə danışırdı.
– Bəli, bitib!.. – Mayor, Rəhimov, əllərini yana açdı.
– Kim edib, bu olanları?! Cənab mayor! – Sevda çaşqınlıqla soruşdu.
– Siz!. – Rəhimov, asta səslə cavab verdi.
– Mən?! – Katibə, yerindən dik atıldı.
– Bəli, siz!
– Yalan danışırsınız! – katibə, səsini yüksəltdi.
– Sakit olun. Gəlin, düzünü danışaq.
– Mən heç nə etməmişəm!
– Sevda xanım! Mənə qulaq asacaqsınız?! – Rəhimov, təmkinini qoruyaraq dedi.
– Hə!..
– Siz, bu planı çoxdan, lap əvvəldən qurmusunuz. Tək yox, yaxınlıq etdiyiniz Ceyhun Yusifovla! Yusifovun arzusu,

buranın müdiri olmaq olub. Lakin, bu arzu real olana oxşamayıb. Bir neçə ildir ki, sizinlə etdiyi yaxınlıq nəticəsində, bu planı qurub və sizinlə bölüşüb. Siz də ona kömək edərək vasitəçi olmusunuz. Yusifov anlayıb ki, onun müdir olmağı baş tutan deyil. Bunun üçün, sənədləri oğurladaraq, özündə gizlədib. Sizin əlinizlə. Sənədlər o, qədər vacib olub ki, hətta şirkət çökə bilərmiş! Ceyhun Yusifovda, bunu istəyirmiş! Sənədləri sizə oğurlatmışdı!

– Siz bunları haradan bildiniz?! – Katibə qışqırdı. – Siz şeytansız! – dedi.
– Sakit olun. Gəlin, bunları necə tapdığımı deyim! Gizlənqaç kimi! – mayor, istintaqı danışmağa başladı:
– Həmin gün Ceyhun Yusifov, ikinci bölmədə kiçik qəza yaratmış, işığı müvəqqəti olaraq kəsmişdi. Bunun nəticəsində, işıqlar sönmüş, sizdə rahat işinizi həll etmişdiniz!.. heç bir iz qoymadan!.. bu qədər...

Katibə, danışa bilmirdi.. Mayor, ayağa qalxaraq:

– Bir-iki saat vaxtınız olar-olmaz. Hüquq mühafizə orqanları sizi həbs edəcək!. Başda Ceyhun Yusifov olmaqla.. – deyib, otağı tərk etdi.
– Dayanın! – katibə, göz yaşlarını silərək, ayağa qalxdı.
– Eşidirəm! – Rəhimov durdu.
– Bu işdə, məni aldadan, Ceyhun oldu! O, alçaq məni aldatmasa idi, belə olmazdı! Mənə söz vermişdi ki, buradan qaçıb, xaricə gedərik!
– Təəssüf ki, gedə bilmədiniz!.. – mayor Rəhimov, qapını örtərək otaqdan çıxdı.

Rövşən Rəhimov, olduqca yorğun idi. Evə gedib, dincəlmək istəyirdi. Fərəcli ilə görüşmədən, evə getdi. Yəqin ki, o özü hər şeyi öyrənib, mayora baş çəkəcəkdi! Rəhimov təmiz havaya çıxıb, dərin nəfəs aldı. Telefonunu çıxarıb, Şamil Arazlıya zəng etdi:

– Şamil müəllim, gələ bilərsiniz!
– Oldu, Rövşən müəllim!

# 1 GÜN SONRA

Xoşagəlməz zəngin səsi eşidildi. Qapıya yanaşıb, açdı.

– Xoş gördük, Rövşən müəllim! – bu gələn, İlham Fərəcli idi!
– Xoş gördük, İlham müəllim! Buyurun, keçin. Qapıdan çəkilib, qonağı içəri dəvət etdi.
– Sizə təşəkkür etməyə gəldim... – Fərəcli dedi. – Sevda mənim, ən yaxşı işçim olub.. belə bir şey etməsi, çox pis oldu.
– Hə. Bəzən elə insanlar elə şeylər edirlər ki, inanmaq olmur.
– Rövşən müəllim! Bu pulu götürün! Əziyyətiniz çox oldu.. – Fərəcli, əlindəki bağlamanı, Rəhimova uzatdı.
– Sağ olun! – Rəhimov, bağlamanı götürdü.
– Mən qalxım, vacib görüşə gecikirəm. – Fərəcli ayağa qalxdı.
– Xoş getdiniz! – Rəhimov da ayağa qalxdı.

Keçmiş polis Mayoru, növbəti cinayətin üstünü açaraq, rahatlanmışdı. Qonağı yola saldıqdan sonra, gözünün acısını almaq üçün, yatmağa getdi.

# *SON*